MƏTBUAT ÜÇÜN AÇIQLAMA

# MOSKVA ŞƏHƏRİNDƏ AVRASİYA GEOSİYASƏTİNDƏ TÜRKİYƏ, AZƏRBAYCAN VƏ RUSİYANIN YERI VƏ ÖNƏMİ MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLDİ

**No: 07/21/36**
**16.10.2007**

16 oktyabr 2007-ci ildə Moskva şəhərində, “President” otelində Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) və Rusiya Müasir Humanitar Akademiyasının birgə təşkilatçılığı ilə **“Avrasiya geosiyasətində Türkiyə, Azərbaycan və Rusiyanın yeri və önəmi”** mövzusunda beynəlxalq konfrans keçirildi.

Açılış mərasimində ATİB İdarə Heyətinin sədri Ahmet Erentok, Rusiya Müasir Humanitar Akademiyasının rektoru Mixail Karpenko, Rusiya Federasiyasının İctimai Palatasının üzvü Sergey Abakumov, Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu, Türkiyə Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Kurtuluş Taşkent çıxış edərək konfrans iştirakçılarını salamladılar. Açılış mərasimində həmçinin Türkiyə Respublikasının 9-cu Prezidenti Süleyman Dəmirəlin konfrans iştirakçılarına videomüraciəti nümayiş etdirildi.

“Avrasiya geosiyasəti” adlı birinci sessiyada Türkiyə Respublikasının sabiq xarici işlər naziri Hikmet Çetin əsas məruzə ilə, Rusiya Avrasiya hərəkatının lideri Aleksandr Duqin, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin İnsan Hüquqları, Demokratikləşdirmə və Humanitar Problemler İdarəsinin rəisi Əlimirzamin Əsgərov, Rusiya Federasiyasının Dövlət Dumasının Beynəlxalq Məsələlər Komitəsi sədrinin birinci müavini Leonid Slutskiy, Türkiyə Cumhuriyyəti Qlobal Strateji İnstitutunun Bilim Şurasının üzvü Nejat Eslen, Sosial Ədalət Partiyasının lideri Aleksey Podberezkin, Rusiya Federasiyasının Təhlükəsizlik, Müdafiə və Hüquq-Mühafizə Akademiyasının birinci vitse-prezidenti Gennadiy Kasyanenko məruzə ilə çıxış etdilər.

“Avrasiya geosiyasətində iqtisadiyyat” adlı ikinci sessiyada Azərbaycan Respublikası baş nazirinin sabiq birinci müavini Abbas Abbasov əsas məruzə ilə,

Azərbaycan Türkiyə İş Adamları Birliyinin sədri Ahmet Erentok, Azərbaycan Beynəlxalq Bankı - Moskva İdarə Heyətinin sədri Fuad Abdullayev, politoloq Anton Surikov, "Azercell" BM-in baş direktoru Halim Ateş məruzə ilə çıxış etdilər.

"Biznes mühitinin inkişafında iş adamlarını birləşdirən Qeyri-Hökumət Təşkilatlarının rolu" adlı üçüncü sessiyada Türkiyə Rusiya İş Şurasının həmsədri Turqut Gür əsas məruzə ilə, Rusiya Sənayeçilər və Sahibkarlar Birliyinin Beynəlxalq Əlaqələr Departamentinin direktoru Andrey Kuznetsov, Türkiyə Cumhuriyyətinin Palatalar və Birjalar Birliyinin İdarə Heyətinin üzvü, Trabzon Ticarət və Sənaye Palatasının İdarə Heyətinin sədri Şadan Eren, Qara dəniz və Xəzər regionu İş Adamları Konfederasiyalarının Birliyinin (UBCCE) baş katibi Murat Zongür, Azərbaycan Beynəlxalq Bankı - Moskva İdarə Heyəti sədrinin müşaviri Azər Səfərov məruzə ilə çıxış etdilər.

"İnsan resursları və innovasiya" adlı üçüncü sessiyada Bakı İnnovasiya Texnologiyaları Mərkəzinin rəhbəri Fərhad Mehdiyev əsas məruzə ilə, Rusiya Müasir Humanitar Akademiyasının rektoru Mixail Karpenko, Türkiyə Respublikasının eks millət vəkili, Gökhan Çapoğlu, Qlobal İnkişaf Tədris Mərkəzinin (GDLN) Rusiya və MDB-də koordinatoru Mixail Bunçuk, dramaturq, yazıçı Mariya Arbatova məruzə ilə çıxış etdilər.

Konfransın sonunda moderatorlar və təşkilatçılar yekun sözü ilə çıxış etdilər, həmçinin konfransın yekun qətnaməsi ilə konfrans iştirakçılarını tanış etdilər.

**Konfrans zamanı ATİB Idarə Heyətinin sədri Ahmet Erentoka Rusiya Müasir Humanitar Akademiyasinin fəxri professoru seçilməyi münasibətilə diplom və medal, həmçinin Rusiya Federasiyasının Ictimai Mükafatlar Milli Komitəsi tərəfindən Rusiya və Türkiyə arasında dostluğun və əməkdaşlığın gücləndirilməsi sahəsindəki səylərinə görə Lomonosov ordeni ilə təltif edildi.**

Tədbirin baş sponsoru kimi "Azercell" BM, sponsoru kimi isə Azərbaycan Beynəlxalq Bankı və "AtaHoldinq" ASC çıxış edir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**